İmadəddin Nəsimi - 650

İmadəddin Nəsimi məqamı bu gün

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Söz dühalarımızdan biri - İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi ilə bağlı 15 noyabr 2018-ci il və 2019-cu ilin ölkəmizdə "Nəsimi ili" elan olunması haqqında 11 yanvar 2019-cu il tarixli sərəncamları təbii olaraq zəngin poeziyası və faciəvi həyat sonluğu ilə yaddaşlarda iz salmış İmadəddin Nəsiminin əbədiyyətə qovuşduğu Hələb şəhərindəki "həqqə məkan", "şərhü bəyan" Nəsimimiz, beləcə "cahanə", "kövnü məkana" sığmayan şairin məqamının hazırkı vəziyyəti ilə bağlı düşüncələrə də işıq salmaq zərurəti yaradır.

Bu fikir və düşüncələr yubiley təntənəsinə qədər də - 2011-ci ildə Suriyada müharibə başlayandan gündəmdədir. Dünya virtuallaşıb. İnformasiyalar sərhəd tanımır. Bizim mediada çoxluq qərib şairimizin məqamının müharibəyə, döyüşlərə sinə gərməsini arzulayıb, bu məzmunda məlumatları yaysalar da həqiqət və dəqiq informasiya məqsədli media bunun əksini bildirirdi. Hələbdə olanlar, Nəsiminin məqamının yerləşdiyi ərazini tanıyanlar əlbəttə ki, məsələyə "həqqi əyan" ağlı ilə qiymət verirdilər. Çünki döyüşlər Hələbin əsas ana yolunun üstündə gedirdisə və daha təsirlisi Qaladan şəhərə, yaxud şəhərdən Hələbin Türkiyə - Kilis qapısına doğru olan səmti terrorçular tutmuşdularsa burada ən gözəl, görünən bir nöqtədə yerləşən Şeyx İmadəddin Nəsimi məqamı necə zərər görməyə bilərdi?

Hələbdə ünümüz çatan, "o tərəflərə"- Mədinə bazarına, Zəkəriyyə peyğəmbər məscidinə və s. həsrət qalmış, həmin tarixi yerlərin gülləbaran edildiyini yaxşı bilən insanlar da bunu şifahi deyirdilər. Lakin Hələbdən nə bir yazı, nə də bir səlahiyyət sahibi bu haqda məlumat vermirdi.

Təxminən iki il əvvəl həmin ərazi milləti, dili, rəngi belə yad-gəlmə olan işğalçılardan təmizləndi. Dağıdılmış tarixi abidələr və bütünlükdə mədəniyyət şəhəri Hələb bərpa olunmağa başladı. Bu zaman ara-sıra sosial şəbəkə - facebookda Azərbaycan şairi Nəsiminin də təkyəsinin zərər çəkmiş olduğu qeyd olundu. Bu qeydlərin ardınca da nəsimişünaslığa iddialı şəxslərin əsassız təkzibləri, onlara inanan bəzi saytların fakta söykənməyən yanlış məlumatı yaymaları da müşahidə olundu. Heç kim özünə və bunu yayanlara sual vemədi ki, "getmisən, gözünlə görmüsən?"...

Əlbəttə ölkəmizdə həqiqət şairi İmadəddin Nəsiminin 650 illik yubileyi tədbirləri istiqamətində onu uyuduğu torpaqda ziyarət etmək ən mühüm işlərdən biri olardı. Bu mümkün olmadıqda məzarı ilə maraqlanmağın, hardasa onun "yaralarına" məlhəm olmağa çalışmağın bir yolu kimi mən neçə aylar ərəb dilli, xüsusilə də Suriya mətbuatını izlədim. Məqam və vəziyyətinə aid dəqiq-dürüst rəsmi məlumat olmasa da internet mediasında Nəsiminin ərəb dünyasının yaddaşında bu gün də yaşadığını təsdiqləyən düşüncələrin ifadə olunduğu, məsələn, "Nəsiminin türbəsi əcnəbilər və yoxsullar üçün bir sığınacaqdır", "İyirminci əsrin əvvəlləri Hələb Qalası kəsişməsində Nəsiminin məzarı "Əli Emad Eddin Əl Nəsimi", "İmadəddin El-Nəsimi. Şair və üç mədəniyyət", "Hələbdə bir şair .. yaşayır!", "Şairlərin şeirlərindən seçmələr: İmad əl Din əl - Nəsimi (1369-1418)", "Böyük Azərbaycan şairi İmadəddin Nəsimi ili", "Nəsimi əl Bağdadi - ilahi sevginin şəhidi", "Nəsimi Kimdir? (İmadəddin Seyyid Nəsimi) Şeirləri və Əsərləri...", "Şeir sənətinin emosionallıq və ruhi həyəcan təcrübəsinin sirri ilə Nəsimi şeirlərindəki unikallıq arasındakı harmoniya. Şair Nəsimi insan və sehrindən heyrətləndi", habelə Hələbdə və ümumiyyətlə ərəb ədəbiyyatı və elmi sahəsində İmadəddin Nəsimi adı gələndə ilk yada düşən müəllif Əbdülfəttah Rəvvas Qələçinin (daha dəqiq desək Qalaji) Nəsimiyə həsr olunmuş "Şair İmadəddin Nəsimi" kitabı haqqında ərəb alimi Feysal Kratçın "Şeir sənətinin emosionallıq və ruhi həyəcan təcrübəsinin sirri ilə Nəsimi şeirlərindəki unikallıq arasındakı harmoniya. Şair Nəsimi insan və sehrindən heyrətləndi" kimi ondan çox məqalə ilə qarşılaşdım. Bu yazılar haqqında "Respublika" qəzetinin 10-18 avqust tarixli saylarında "Nəsimi və Nəsimi ilinin" çağdaş ərəb dilli tədqiqatlarda əks-sədasına həsr olunmuş 3 səhifəlik tədqiqatım, həmçinin "Ədəbiyyat qəzeti"ndə (24 avqust 2019) "Suriya alimi Əbdulfəttah Rəvvas Qələçi və İmadəddin Nəsimi irsi" adlı məqaləm çap olundu.

İmadəddin Nəsiminin çağdaş ərəb dilli mənbələrinin yazarlarını, xüsusən də dahi şairin ərəb dünyasında ən məşhur tədqiqatçısı, onu əbədiləşdirən Əbdülfəttah Rəvvas Qələçini indi bütün dünyanın bir böyük mağar kimi toplandığı Facebook sosial şəbəkəsində axtararkən bir sıra Suriya-Hələb ziyalıları, o şəhərin rəsmi qurumları, o cümlədən Hələb şəhərinin baş inşaat mühəndisi bu şəhərin bir çox qəsəbələrinin, tikililərinin qurucusu, hazırda Səudiyyə Ərəbstanında Ər-Riyad şəhərində layihə rəhbəri olaraq çalışan Əbdülrəhman Əl-Jasserlə yazışmalar apardım. O mənə imkan daxilində Söz dahimiz İmadəddin Nəsiminin məqamını ziyarət edib, onun bugünkü vəziyyəti haqqında məlumat verəcəyinə, Suriyada müharibə başlarkən, alovlanıb evini əhatələyərkən vətəni tərk etməmiş, bütün ərəb Nəsimi tədqiqatçılarından üstün hesab etdiyi 81 yaşlı Əbdülfəttah Rəvvas Qələçi ilə məni əlaqələndirəcəyinə söz verdi. Əbdülrəhman Əl-Jasserlə öz səhifəsində minlərlə insanın diqqət ayırdığı Hələb tarixi abidələrindən, mədəniyyət mərkəzlərindən fotolar, məlumatlar paylaşdıqca ara-sıra rəylərimlə onun yadına mənə vermiş olduğu Sözü xatırladırdım. Bir paylaşmasındakı fotonun altında "Avropada yollar Romaya, Hələbdə şeirə aparır" - yazmış Əbdülrəhman Əl-Jasserə mən "Hələbdə şeir də Nəsimiyə aparır..." rəyimi ünvanladıqda, o "fotoların Nəsimi məqamından 5000 metr irəliyə aid olduğunu, müharibənin yaratdığı dağıntılar səbəbindən o tərəfə getməyin çox çətinliyi barədə və "təəssüf ki, "Nəsiminin" məqamı da zərər çəkib" cavabını yazdı. Ancaq o, bu istəyimi yerinə yetirəcəyinə təkrar Söz verdi.

Nəhayət mənim ərəb dilini bilməyə-bilməyə, çətinliklə google tərcümə sistemi vasitəsi ilə Əbdülrəhman Əl-Jasserlə yazışmalarım nəticə verdi və o mənə bu gün minlərlə izləyicinin maraqla oxuduğu "Təsəvvüf şairi İmadəddin Nəsimi" məqaləsini yolladı.

Məqaləni təqdim etməzdən öncə Əbdülrəhman Əl-Jasserin yazdığı məqalədəki Nəsimi məqamı və məqaləsində əsərinə müraciət etmiş olduğu ərəb alim və yazıçısı Əbdülfəttah Rəvvas Qələçi haqqında şərhimi diqqətə çatdırmaq istəyirəm. Belə ki, əvvəlcə Əbdülfəttah Rəvvas Qələçi haqqında. O, 1938-ci ildə Hələbdə doğulub, orada ilk təhsilini alıb, Dəməşqdə universitet bitirib, uzun müddət Sənət Universitetində dərs deyib, Ərəb Yazıçılar Biriyinin üzvüdür, Suriyanın tanınmış alim, yazıçılarındandır. Onun "İslam estetikasına giriş", "Hələb - dünən və bu gün", "Sirli Teatr", "Canlı operetta" elmi əsərləri, həmçinin "Quşların uçuşu" romanı, "Dəlilik fantaziyası", "Ayaqqabı təmirçisi", "Turist və qatar", "Gözəl ana" və s. çox sayda pyesləri və əllidən çox digər əsərləri sırasında Azərbaycan mühacir mütəfəkkirləri haqqında - "İmadəddin Əl Nəsimi", "Hələbin yaqutu - İmadəddin Nəsimi - həyatı, poeziyası, fəlsəfi görüşləri", "Rumiyə gedən yol" (pyeslər), "Əl-Sührəvərdi - hikmət sahibi" kitabları da xüsusilə seçilir.

Yeri gəlmişkən qeyd etmək istəyirəm ki, Əbdülfəttah Rəvvas Qələçi Facebook sosial şəbəkəsindəki səhifəsində "Rumiyə gedən yol" kitabında Nəsimiyə həsr olunmuş pyes haqqında bunları yazmışdır: "Birinci pyes-yolu görən ("Rumiyə gedən yol" nəzərdə tutulur) sufi şair, hicri ilə 820-ci, milad 1417-ci ildə məmlüklərin hakimiyyəti zamanı diri-diri soyulmuş, sonra parça-parça edilib səpələnmiş Nəsiminin məzarı Hələbdə Qalanın önündədir. Onun ölümünün vəhşiliyi bu gün Suriyada insanların gözü qarşısında cərəyan edən zorakılıqlara - ölümlərə, alçaldılmalara bənzəyir".

Azərbaycan elmi ictimaiyyətinə görkəmli ərəb alimi Əbdulfəttah Rəvvas Qələçi haqqında ilk dəfə akademik Bəkir Nəbiyev məlumat vermişdir. Belə ki, alim bu məqalənin müəllifinin 2005-ci ildə Nəsimi sevgisi ilə yaratdığı "Nəsimi" Suriya-Azərbaycan Dostluq Cəmiyyəti" İctimai Birliyinin mətbu orqanı "Cahan+" qəzetinə "Nəsimi kəlamının işığında" ("Cahan+" qəzeti, 11 dekabr. 2009-cu il) məqaləsini təqdim etmiş və bu məqalədə şairi ərəb dünyasında əbədiləşdirən Qələci və kitabı haqqında məlumat vermişdir. Akademik 2009-cu ildə həmin məqaləni bir qədər genişləndirməklə "Nəsimi kəlamının işığında" adlı kitab çap etdirmişdir. Bu kitab fəlsəfə doktoru Səadət Şıxıyevanın bildirdiyinə görə ölkəmizdə yalnız ondadır. Əlbəttə yaxşı olardı ki, 2 ilə yaxın bir müddətdə Nəsimi "tədbirləri" sırasında bu qiymətli əsər haqqında, - kitabdakı şərh və təhlillərin mənbəyi, yeniliklər və s. barədə ölkə ədəbi, elmi ictimaiyyətinə məlumat veriləydi. Ümid etmək istərdik ki, "Nəsimi İli" yekunlaşana qədər kitabın dilimizə tərcümə edilməsi reallaşar və biz bu qiymətli əsərlə tanış olarıq. Onu da qeyd edim ki, təəssüf ki, Qələçinin bu kitabının üz qabığı internet səhifələrində oxunmaz haldadır. İç üz qabığı akademik Bəkir Nəbiyevin "Nəsimi kəlamının işığında" kitabında verilmişdir və biz bu məqalədə onu təqdim edirik.

İkincisi, xüsusilə qeyd etmək istərdim ki, Əbdülrəhman Əl-Jasserin çəkdiyi şəkillər ərəbdilli çağdaş tədqiqatlarda Nəsimi irsinin təhliləri mövzusunu araşdırarkən və eləcə də hələbli insanlardan Nəsimi məqamı fotolarını istəyərkən mənim əldə etdiyim şəkillərin demək olar ki, çoxundan fərqli və yenidir. Həmçinin də peşəkar mütəxəssis olan Əbdülrəhman Əl-Jasser onların elmi şərhini həm Ərəb Ensiklopediyasına, eləcə də Əbdülfəttah Rəvvas Qələçi tədqiqatlarına əsaslanmaqla müfəssəl və dolğun şəkildə verməklə ərəb memarlıq tarixinin müharibədə nə qədər "sarsılmış" olsa da öz tarixi gözəlliyini qoruduğunu nümayiş etdirir.

Bir məsələni də diqqətə çatdırmaq istərdim. Belə ki, Əbdülrəhman Əl Jasserlə bir neçə ay davam edən yazışmalarımızın son nəticəsi - bu məqalənin ərsəyə gəldiyi gün mən ona "Hələbdə düşmənlərin dağıtdığı Zəkəriyyə peyğəmbərin məscidində, Nəsiminin "təkyəsi"ndə bərpa işlərinin" getdiyini bildirdikdə, o mənim məlumatımın bir az yanlış olduğunu dedi və əlavə etdi ki, - "Həzrət Zəkəriyyə və Böyük Ümeyya" məscidlərinin bərpasına başlanılmışdır, İmadəddin Nəsiminin məqamına gəlincə hələ ki, bu görünmür, yəqin ki, ona da növbə çatacaqdır". Bu məlumat təbii UNESCO tərəfindən qəbul edilmiş qərar - Nəsiminin 650 illik yubileyinin bütün dünyada əks-səda doğurması təranəsini yaşayan bir azərbaycanlı olaraq məni həm kövrəltdi, həm də düşündürdü. Həmsöhbətim elə bil ürəyimi oxuyubmuş kimi "Azərbaycan bərpa işlərini öz üzərinə götürəcəkmi? - sualını mənə verdi. Cavabım "bu haqda heç bir məlumatım yoxdur", - oldu. Amma Əbdülrəhman Əl-Jasserin bu bir cümləlik sualından sonra vacib işi çıxması ilə bağlı söhbətə ara verməsi fikrimi yarım əsr əvvəllərə gedib çıxan Suriya-Azərbaycan əlaqələrinə, xalqımızın ulu öndəri Heydər Əliyevin Suriyaya səfəri zamanı Nəsimini ziyarət etməsi ilə bu məqamın abadlaşdırılması və s. müsbət ruhlu qaynaqlara apardı. Belə ki, Azərbaycanla Suriya arasındakı əlaqələrin tarixi İpək yolu üzərindən başlayıb. Bu əlaqələrin Azərbaycanın ümummilli lideri Heydər Əliyevin bu ölkəyə 1972-ci ildə rəsmi səfər etməsi, Suriya Ərəb Respublikasının prezidenti Hafiz Əsədlə görüşləri ilə əsaslı bünövrəyə çevrilmişdir. Həmçinin Hafiz Əsəd də 1984-cü ildə SSRİ-yə səfəri zamanı Azərbaycana gəlmiş, əlaqələr genişlənmiş və möhkəmlənmişdir. Azərbaycan müstəqillik əldə etdikdən sonra Suriya ilə əlaqələr 1992-ci ilin 28 mart tarixindən başlayır. 11 aprel 1997-ci ildən isə iki ölkə arasında əməkdaşlıq münasibətləri dərinləşdi. Bundan sonra ulu öndər Heydər Əliyev Dəməşq şəhərində Azərbaycan səfirliyinin açılması haqqında qərar qəbul etmişdir.

2008-ci il may ayının 16-da fəaliyyətə başlayan Azərbaycan səfirliyi iki ölkə arasında əlaqələrin güclənməsində həlledici addımlar atmışdır. Suriyanın hazırkı prezidenti Bəşər Əsəd 2009-cu ildə dost ölkə Azərbaycana rəsmi səfərə gəlmiş, Prezident İlham Əliyev və digər siyasilərlə görüşmüş, qarşılıqlı görüşlərin real yekunu olaraq iki hökumətin Nazirlər kabinetləri arasında müxtəlif sahələri əhatə edən 14 bənddən ibarət Saziş imzalanmışdır. Bu istiqamətdə mədəniyyət əlaqələri də əsas təşkil edirdi. Belə ki, 2009-cu ilin 17-20 noyabr tarixlərində Suriyanın Hələb şəhərində Azərbaycanın dahi şairlərindən İmadəddin Nəsiminin həyat və yaradıcılığına həsr olunmuş müştərək elmi konfrans keçirilmiş, onun bu şəhərdə olan məzarının restavrasiyası və həmin ərazinin yenidən qurulması haqqında ümumi razılaşma qəbul edilmişdir. Bu haqda habelə Azərbaycan mətbuatı, eləcə də ərəb rəsmi mediası geniş yazılar vermişdir. Azərbaycanın Suriyada səfiri olmuş Mahir Əliyevin modern.az saytına verdiyi "Azərbaycanın Suriyadakı ilk səfiri: **"Suriya müftisi Nəsiminin qətlinə görə xalqımızdan üzr istədi"** sərlövhəli müsahibədə də ciddi məlumatlar vardır. Səfir müxbirin "- Bəs qəbrin yenidən bərpasının mümkünlüyü barədə hansı nəticə hasil olundu? - sualını cavablandırarkən o göstərmişdir ki, "- Qədim şəhər qoruğunun rəisi ilə danışdıq və o, orada daşı daş üstünə qoymaq ixtiyarlarının olmadığını bildirdi. "Bunun üçün mütləq UNESCO ilə razılığa gəlinməlidir" dedi. Çünki qəbrin yerləşdiyi ərazi UNESCO-nun maddi-mədəniyyət irsinə daxil edilib. Ərazi tarixi abidə kimi qorunur. Ancaq onların razılığı ilə bu məsələyə baxmaq olardı. Bu zaman biz təkliflərimizi bildirdik. Çəkdiyimiz şəkilləri Bakıya göndərdik. Biz şəkillərdə hər yeri ayrı-ayrılıqda dəqiqliyinə qədər təsvir etmişdik. ... Yerli - suriyalı arxitektorlar məsələni öz aralarında müzakirə etdilər. Təxminən belə bir plan cızıldı. Məqbərəni dəyişdirmək olar, ancaq çox hündürə qaldırmaq olmaz. Çünki məqbərənin UNESCO tərəfindən qəbul edilmiş ölçüləri var. Memarlıq abidələrini ortaya incəsənət əsərləri kimi çıxartmaq olmaz. Azərbaycan Mədəniyyət Nazirliyinin Aparat rəhbəri Fikrət Babayev administrativ qrupun rəhbəri idi. Bir az keçəndən sonra cənab Prezidentin məsələ ilə bağlı sərəncam imzaladığı və qəbrin bərpası üçün maliyyə vəsaiti ayırdığı xəbəri verildi".

İndi, Suriya Ərəb Respublikasında müharibə alovlarının hələ də səngimədiyi, təbii olaraq ölkənin iqtisadi vəziyyətinin ağır olduğu bir vaxtda səfir Mahir Əliyevin vurğuladığı fikir, - "Bunun üçün mütləq UNESCO ilə razılığa gəlinməlidir". Çünki qəbrin yerləşdiyi ərazi UNESCO-nun maddi-mədəniyyət irsinə daxil edilib. Ərazi tarixi abidə kimi qorunur. Ancaq onların razılığı ilə bu məsələyə baxmaq olar" - çox aktual səslənir.

Fikrimizcə, UNESCO, eləcə də milli-mənəvi dəyərlərimizə, xalqımızın yetirdiyi dahilərə daim xüsusi diqqət ayıran, onların unudulmaması üçün tarixi işlər həyata keçirən Azərbaycan Respublikasının əlaqədar qurumları Suriyanın Hələb torpaqlarında uyuyan qərib dahimizin müharibədən zərər çəkmiş məqamının bərpası işləri ilə də bağlı mühüm addımlar ata bilər. Bu UNESCO xətti ilə qeyd olunan İmadəddin Nəsiminin 650 illik yubileyinə ən layiqli töhfələrdən biri olardı.

Beləliklə, söz dahimiz İmadəddin Nəsimi və məqamının bu günündən bəhs edən "Təsəvvüf şairi İmadəddin Nəsimi" məqaləsini və şairin müharibədən zərər görmüş məqbərəsinin hazırkı vəziyyətini əks etdirən şəkilləri təqdim edirik:

Təsəvvüf şairi Nəsimi

2019-cu ilin iyul ayında Hələb Qalasının dairəsinin qarşısındakı köhnə pasport binasından başlayaraq iki döngəni keçdim. Son müharibənin dağıtdığı Əl-Zəravi məktəbi və Sultan hamamına doğru sola döndüm. Məqamın və məzarın özünü görmək üçün bir neçə addım da davam etdim və İmad əd-Din əl-Nəsimi məqamının demək olar ki məhv edildiyinə təəccübləndim. Binadan onun bünövrəsi, arxasındakı dalan qapısı, bir bağça və dağıntılar altından görünən, - sənədləşdirdiyim sarı daş parçası qalıb.

Nəsimi kimdir?

- O, azərbaycanlı və ya türkmən sufi şairi və mütəfəkkiridir.
- Türk və fars dillərində şeirləri vardır.
- Məktəb kimi məşhur olan Fadlüllah Nəimi və Asturabadi doktrinasının davamçısı olduğu deyilir.
- Nəsimi 1370-ci ildə Şamaxıda və ya Bağdadın ətəklərində meh-nəsim kimi doğdu.
- Ölüm yeri: Hələb 1417.
- Ölümün səbəbi: Qətl. Küfr və bidətdə günahlandırıldıqdan sonra Hələb qalasının ətrafında diri-diri edam edildi.
- Şeirlərinin dilləri: Standart ərəb, Azərbaycan və fars.
- Məqbərənin yeri: Qala tərəfdən Farafranın girişində.
- Nəsimi şair insandan və sözün cazibəsindən ilhamlandı.

Nəsimi Türkiyə və İranın böyük şairlərindən sayılır

Zəviya əl-Nəsimi, Sufi icmasının bir çox qəbirlərini özündə cəmləşdirən və İmad əd-Din ən-Nəsiminin qalıqlarının basdırıldığı bir məscid idi.

1504-cü ildə Sultan (Qansuh əl-Ghuri) tərəfindən təmir edilmiş, Osmanlı dönəmində qubernator (Mustafa Paşa) 1821-ci ildə onu yeniləmiş və həyat yoldaşını bu məsciddə basdırmışdır.

Nəsiminin məqamı Hələb şəhərində əhəmiyyətli bir rol oynadı və Təkiyə kimi qəbul edildi. Bu məqam Nəsimini rəhbər götürənlərin hamısını tanıdı, yoxsullara, yoldan keçənlərə qucaq açdı, onları yedizdirdi, geyindirdi...

Bunlar Sizlər üçün bir neçə mənbədən ümumiləşdirdiyim yazıların başlıqlarıdır və mistik şair və filosof Nəsiminin həyatı haqqında daha çox məlumat əldə etmək istəyənlər yazıçı və tədqiqatçı **Hələbli Əbdul Fəttah Ravvas Qalajinin "İmad əd-Din əl-Nəsimi" adlı kitabına** müraciət edə bilərlər.

Əbdül Fəttah Qalaji "İmad əd-Din əl-Nəsimi" əsərində əl-Nəsiminin hicri 771/1370-ci ildə "Şamaxı" şəhərində doğulduğunu və buna görə Şirvani adlandırıldığını yazmışdır. O, şairin poeziya və fəlsəfi görüşlərini, Hələbdə yaşadığı dövrü araşdırmış, təsəvvüf fəlsəfəsi ilə din arasında çarpışan və ömrü "faciəli sona" çatan şairin Azərbaycan dilində tam orijinal bir külliyatı - nəhəng Divanı olduğunu göstərmişdir.

Əl-Nəsimi türbəsi Zəviyat əl-Nəsimi kimi tanınan bir dalanda, Hələbdəki əl-Farara məhəlləsində, qəbiristanlıq tərəfə və şimalda, "Hammam əl-Sultan" yaxınlığında, İsmaili məktəbinin qərbində yerləşir.

Bir təhlil-şərhdə o, dünyanın dahi şairi yüksəkliyinə qalxan, bizi şeirin sehrinə aparan öz dünyası olan insandır. Öz əqidəsinə sadiqdir. Azadlığı və ən ali məqsədi - uğrunda mübarizə aparır. Həyatın dəyərinin həqiqət olduğunu deyir:

"İnsanın siması həqiqətdir. Bu insanı dərk etməyə imkan verən şeydir". Beləliklə, insan - gücün özü, yolu və sonu, aşiq və pərəstişkar odur. Sultan, hakim, gözəllik, heyran, eşq, aşiq bir varlıqda birləşdi".

Onun poeziyasında iki aspekt diqqəti cəlb edir: emosionallıq və ruhi həyəcan, bunların harmoniyası bu şeiriyyətin unikal sirli nəğməsidir. İmad əd-Din əl-Nəsimi fəlsəfə, astronomiya, məntiq, riyaziyyat və təbiət elmləri üzrə kamilləşdi. Ərəbcə, farsca dili axıcı idi. Üç dildə yazmış və ədəbi yaradıcılıqda öz dili olaraq azəricə yazmağı bacarmış və on mindən çox "ev" əsəri yaratmışdır. Nəsiminin fars dilində olan divanı təxminən beş min "ev"dir. Ərəbcə şeirləri çox cüzidir. Ola bilər ki, itmişdir və ya dağıdılmışdır".

Köç və işgəncə

Əl-Nəsimi "Hürufiləri" qucaqladı və şöhrətlilərdən biri oldu. Bundan sonra Təbrizə və Bağdada getdi və bir müddət orada qaldı. O, "dünyaya gözlərini açan" müəllimi Fadlallah Əl-Naiminin qızı ilə evləndi və müəlliminin edamından sonra onun ideyalarının "İşıqlı yolu" kimi 1396-cı ildə Bakıdan ayrıldı. Müəllimini sevən, ona hörmət edən Rum eli şairləri onun ətrafında toplaşdılar və ilahi ruhda şeirlərinin, nitqlərinin cazibəsinə qapılaraq təsəvvüf elmini irəli apardılar.

"Düşüncələrini yaymağa başladıqda alimlər bunu İslama qarşı bir çıxış kimi qarşıladılar və üsyan etdilər. Osmanlı səlahiyyət sahibləri tərəfindən təqib edildi, həbs olundu, işgəncələrə məruz qaldı. Bundan sonra Osmanlı İmperatorluğundan Hələbə doğru yola çıxdı. 1401-ci ildə Əmir Teymurun Suriyadan ayrılmasından sonra Hələbə gəldi. Bu onu fərəhləndirdi. Müəllimlər və şagirdlərlə tanış oldu. Düşüncələrini bölüşdü. Şeirlərini oxudu. Onun azad fikirlərini getdikcə daha geniş meydanlarda paylaşması bəzi dindarlar tərəfindən gündəmə gətirildi, ancaq edilən xəbərdarlqlara rəğmən, çıxışlarını davam etdirdi, dinləyicilərini qəbul etməkdə davam etdi. Şagidlərindən birinin müəlliminin şeirlərini Hələbdəki bir bazarda söylədiyi deyilir.

"Bu gənc adam həbs olundu və mühakiməsi zamanı müəlliminin təhlükəsizliyi üçün saçını uzatdı, ölüm cəzasına məhkum edildi. Ancaq Əl Nəsimi şeiri dərhal əcəli özünə döndərdi və bir qrup elm adamının iştirak etdiyi Ədalət Məclisinə gətirildi. Hələb hakimi Yəsbak əl Yusufinin qatıldığı və əl-Nəsiminin yalan, ateizm və itaətsizlikdə günahlandırıldığı məhkəmədə hakimlər ölüm cəzasını qəbul etmədilər. Sultan millət vəkili: "Onu öldürmürəm və Sultanın qərarını "gözləyəcəyəm" dedi. **Filosofun edamı:** Qurum hakimlərin fikirlərini əks etdirən qərarı pozan hökm göndərmişdir. Alimlərin Qahirədəki sultana Nəsiminin cildinin və dərisinin soyulması ilə doğranması edamı və nəşinin 7 gün Hələbdə nümayiş etdirilməsi barədə müraiətinə cavab gəlir. Ancaq müxalifləri Nəsimini təqsirləndirmək üçün qanuni bir əsas tapa bilmədilər. Sükut çökdü. Nəsimi iki dəfə Kəlmeyi- Şəhadətini dedi".

Edam günü

Həmin gün möhtəşəm bir gün idi. Hər tərəfdən insan seli meydana axışırdı. Nəsimi son dəfə nəfəs aldı və ecazkar səsi Hələb Qalasının divarlarına hopdu. Dünyanın ən məşhur şairi, filosofu əbədiyyətə qovuşdu.

Xatirə QULİYEVA,
AMEA Fəlsəfə İnstitutu "Multikulturalizm və Tolerantlıq Fəlsəfəsi" şöbəsinin müdiri, fəlsəfə üzrə elmlər doktoru.